**18-ci Xəzər Beynəlxalq Neft-Qaz Konfransı 2011**

**8-9 iyun 2011-ci il**

**<u>6-cı Sessiya</u>**

# N Ə Q L

***Xəzər dənizinin karbohidrogen resurslarının xarici bazarlara etibarlı nəqlinin təminatı***

***Azər N. İSAYEV***



***Xəzər dənizinin karbohidrogen resurslarının xarici bazarlara etibarlı nəqlinin təminatı***

***Azər N. İSAYEV***

Hörmətli konfrans iştirakçıları,

Müasir dövrdə ölkələrin inkişafı və yeni sənaye sahələrinin yaranması enerji daşıyıcılarına olan tələbatı da artırır. Enerji təminatı iqtisadiyyat, siyasət və təhlükəsizlik sahələrində həm qlobal, həm də regional səviyyədə əsas yer tutan məsələlərdən birinə çevrilmişdir. Dünyanın əksər ölkələrində baş vermiş maliyyə böhranının bitməsi və böhranın vurduğu fəsadların tədricən təsirinin azalması bu dövlətlərin enerji daşıyıcılarına olan tələbatının artmasına gətirib çıxarmışdır.

Avropa ekspertlərinin rəylərinə əsasən, Nabukko, İTGİ (Türkiyə-Yunanıstan-İtaliya İnterkonnektoru), TAP (Trans-Adriatik Boru Kəməri), AGRİ (Azərbaycan-Gürcüstan-Rumıniya İnterkonnektoru) və digər regional layihələrdə Azərbaycanın rolu artacaqdır. Eyni zamanda, dünən Türkiyənin Kayseri şəhərində Avropaya qazın tranzitinə dair Nabukko ölkələrinin rəsmiləri tərəfindən imzalanmış sazişin region üçün əhəmiyyətli olacağına ümid bəsləyirik.

Avropanın enerji təhlükəsizliyinin təminatı məsələsini gündəmə gətirən əsas amillər təbii fəlakətlər, texnogen qəzalar və ətraf mühit dəyişiklikləridir.

Enerji təhlükəsizliyi məsələsinə əlavə olaraq qeyd etmək lazımdır ki, artıq bir sıra dövlətlər atom enerjisindən imtina etmək qərarına gəlmişlər. Belə ki, Yaponiyanın Fukusima Atom Elektrik Stansiyasında baş vermiş fəlakət bu ölkələri atom enerjisi ilə bağlı planlarına yenidən baxmağa sövq etmişdir. Nəticədə, ənənəvi və alternativ enerji mənbələrinə olan tələbat artmışdır. Yaxın perspektivdə Almaniyanın, Çinin, Rusiyanın və digər iri dövlətlərin əhali qrupunda və elektroenergetika sahəsində qaz istehlakının artımı gözlənilir. Şimal Axını, Cənub Axını, Mavi Axın və Şərq istiqamətində istismarda və tikilməkdə olan boru kəmərlərinin inşasında irəliləyişlər nəzərdə tutulur. Müasir ekoloji tələblərə cavab verən ənənəvi enerji mənbələri öz aktuallığını qoruyub saxlayır.

## Beynəlxalq enerji balansında Xəzər dənizinin və Azərbaycanın rolu

Xəzər dənizi karbohidrogen ehtiyatlarının zənginliyi ilə birlikdə dünyada ilk neft çıxarma yeri kimi tarixə düşmüşdür. Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük

inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanını qazanmışdır.

Bütün dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudakı neft fontanı Azərbaycanda "qara qızılın" sənaye üsulu ilə çıxarılmasının əsasını qoymuşdur. 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının 50%-ni təmin etmişdir. Böyük Vətən Müharibəsi illərində Azərbaycan Sovet İttifaqında çıxarılan neftin 75-90 faizi həcmində ön cəbhəni yanacaqla təmin edərək faşizm üzərində qələbədə böyük rol oynamışdır. 1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr məsafədə o zaman üçün nadir yataq hesab edilən "Neft Daşlarında" sənaye üsulu ilə neft hasilatının təşkil edilməsi dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycan dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxarmağa başlamışdır.

Artıq uzun müddətdir ki, dünyada istismar olunan karbohidrogen yataqlarının ehtiyatları tədricən azalır. Belə bir şəraitdə istehlakçılar zəngin neft-qaz ehtiyatları olan regionlara meyl edirlər. Hazırda Azərbaycana mövcud və potensial enerji təchizatçısı kimi artan marağın səbəblərindən biri məhz budur. Bundan başqa, ölkəmiz əlverişli tranzit imkanlarına malikdir. Respublikamız Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri və digər regional miqyaslı layihələri həyata keçirməklə geniş əməkdaşlıq məkanının əsasını qoymuşdur və bu strategiya bu gün daha da möhkəmlənməkdədir.

Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər iri-miqyaslı layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan dövlətə çevrilmişdir. Şərq-Qərb və Şimal-Cənub layihələrinin kəsişmə nöqtəsində yerləşməklə, respublikamız böyük nəqliyyat şəbəkələrinin və beynəlxalq kommunikasiya qovşaqlarının mərkəzi olaraq Avrasiya regionunda geostrateji əhəmiyyətə malik tranzit ölkə kimi qəbul edilir. Ölkəmiz ilə Avropa İttifaqı arasında "Cənub Qaz Dəhlizi" haqqında Birgə Bəyannamə"nin imzalanması "Nabukko", Türkiyə-Yunanıstan-İtaliya, Transadriatik kimi boru kəməri layihələrinin həyata keçirilməsinə əlverişli şərait yaradır. Belə olan halda Azərbaycan karbohidrogen ehtiyatlarının stabil və etibarlı nəqlinin təminatı üçün Şərq-Qərb enerji və nəqliyyat dəhlizinin yaradılmasında, infrastrukturun inkişafında və enerji resurslarının tədarük yollarının şaxələndirilməsində maraqlıdır.

Konfransın dünənki plenar sessiyalarında çıxış edən diplomatların və Qərb ölkələrinin nümayəndələrinin böyük əksəriyyətinin çıxışlarında Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu qeyd edirdilər. Bununla Azərbaycanın Avropaya inteqrasiyası prosesində enerji sahəsində əməkdaşlıq ilə bərabər idman və mədəni əlaqələrin artması da bildirilirdi. Həmçinin, məruzəçilər əməkdaşlığın uğurlu nümunəsi kimi, Avropanın mərkəzində Almaniyanın Düsseldorf şəhərində keçirilmiş Avroviziya müsabiqəsində təmsilçilərimizin qələbəsini vurğulayırdılar. Hörmətli məruzəçilərin təbriklərini səmimi qəbul etməklə bərabər təmsil etdikləri ölkələrin bu ildən fərqli olaraq gələn il Bakıda keçiriləcək "Avroviziya" mahnı müsabiqəsində Azərbaycan nümayəndələrinə səs verəcəyinə ümid edirik.

Bildiyiniz kimi, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş Neft Strategiyasına uyğun olaraq Azərbaycan 1,5 milyard tondan artıq neft və 2 trilyon kubmetr qaz həcmində enerji ehtiyatları və 7 magistral kəmər vasitəsilə regionun əsas enerji təminatçısı qismində çıxış edir. Bunlardan 3-ü neft (Rusiya, Gürcüstan və Türkiyə istiqamətləri), 4-ü isə qaz (Türkiyə, Gürcüstan, Rusiya və İran istiqamətləri) kəmərləridir. Bakı-Tbilisi-Ceyhan (BTC) neft və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz boru kəmərlərinin istifadəyə verilməsi həm regional, həm də Avropanın enerji təhlükəsizliyində xüsusi əhəmiyyət kəsb edir. Təkcə BTC vasitəsilə ölkəmiz sutkada 1 milyon barel, ildə 50 milyon ton neftin ixracını həyata keçirir. BTƏ boru kəməri ilə isə ildə 25 milyard kubmetr qaz ixrac edilir. Məlumat üçün bildirək ki, 2010-cu ildə ölkəmizdə 51,5 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmişdir. Təkcə "Şahdəniz" yatağında təsdiqlənmiş qaz ehtiyatları 1,2 trilyon kubmetr təşkil edir. Xəzərin Azərbaycan sektorunda kəşf olunmuş bu yataq zəngin qaz və kondensat ehtiyatına malikdir. Hazırda "Şahdəniz" layihəsinin birinci mərhələsi çərçivəsində qaz hasil edilir. Birinci mərhələ dövründə bu yataqdan maksimum hasilatın sabit səviyyəsinin ildə 8,6 milyard kubmetr olacağı gözlənilir. Ekspertlərin hesablamalarına əsasən, 2015-ci ildən sonra Azərbaycanın qaz gəlirləri neft gəlirlərini üstələyə bilər. Beləliklə, enerji sektorunda Azərbaycanın apardığı diversifikasiya siyasəti ölkəmizin təbii resurslarının xarici bazarlara etibarlı nəql edilməsində mühüm rol oynayır.

Hörmətli konfrans iştirakçıları,

Prezident cənab İlham Əliyevin hazırkı Sərgi və Konfransın açılış mərasimində qeyd etdiyi kimi, 20 sentyabr 1994-cü ildə imzalanmış Əsrin Kontraktından ötən 17 il ərzində Azərbaycan ilə xarici şirkətlər arasında heç bir hüquqi qarşıdurma, narazılıq, kontraktlara yenidən baxılması məsələsi olmamışdır. Azərbaycan üzərinə götürdüyü öhdəliklərə və imzalanmış sənədlərə əməl edir. Qeyd etmək lazımdır ki, "Neft Diplomatiyası"nın təntənəsi

olaraq Hasilatın Pay Bölgüsü Sazişinin imzalanması ilə neft və qaz yataqlarının axtarış-kəşfiyyat işləri, karbohidrogen resurslarının hasilatı və nəqli regional boru xətlərinin istehsalını və quraşdırılmasını tələb edirdi. Magistral boru kəməri xətlərinin Azərbaycanda örtüklənməsi, Xəzər dənizindən çıxarılan neft və qazın beynəlxalq bazarlara nəqli zərurəti ilə əlaqədar həmin illərdə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti cənab İlham Əliyev tərəfindən Əsrin Kontraktında nəzərdə tutulmuş geniş miqyaslı tədbirlərin həyata keçirilməsi üçün beynəlxalq əlaqələrin inkişafı və xarici investisiyaların cəlb edilməsi istiqamətinə rəhbərliyi sayəsində 2002-ci ildə Bakıda Boru izolyasiya və örtükləmə zavodunun təməli qoyuldu. 2003-cü ildə cənab İlham Əliyevin müəssisəmizin açılış mərasimində iştirakı qarşımızda şərəfli və məsuliyyətli vəzifənin qoyulması ilə bərabər gələcək inkişaf perspektivlərimizi müəyyən etdi. Uzaqgörənliklə qəbul edilmiş qərar və qısa müddətdə reallaşdırılmış böyük layihə yaxın illərdə həyata keçirilən boru izolyasiya işlərinin, o cümlədən bir məkanda boruların qəbulu, örtüklənməsi, betonlanması, qurudulması, yüklənib göndərilməsinin tam qapalı sikl olmaqla, bütünlüklə Azərbaycanda aparılmasını təmin etmiş oldu. Ölkəmizdə ən qabaqcıl texnologiyaya malik yeni müasir istehsalat kompleksi yaradıldı.

**Caspian Pipe Coatings**

Müəssisəmiz 2002-ci ildə təsis edilmiş keçmiş EUPEC Pipe Coatings Azerbaijan Ltd.-nin hüquqi varisi olaraq 2007-ci ildən etibarən əsas təsisçimiz ARDNŞ olmaqla Caspian Pipe Coatings MMC adı altında tam yerli şirkət kimi dövlət qeydiyyatından keçib fəaliyyət göstərir.

Magistral neft, qaz və su boru kəmərlərinin müasir növ izolyasiyası və örtüklənməsi sahəsində CPC-nin yerinə yetirdiyi spesifik xidmətlər Xəzəryanı regionda unikallığı ilə seçilir. Müəssisəmizin göstərdiyi əsas xidmətlərə aşağıdakılar daxildir:

- Boruların xarici səthinin 1 qat epoksidlə örtüklənməsi
- 3 qat polietilen ilə örtükləmə
- 3 qat polipropilen ilə örtükləmə
- Boru xətlərinin daxili təmizlənməsi
- Qaz borularının daxili divarlarındakı nahamarlığın azaldılması üçün çəkilən örtük
- Daxili epoksid örtüyü
- Betonla örtükləmə və anodların quraşdırılması
- Logistika xidmətləri

Zavodumuz Bakıda Nobel prospektində yerləşir və biz quruda və dənizdə həyata keçirilən layihələrdə xətti və əyri boruların, eləcə də boru dirsəklərinin və dayaqlarının izolyasiyası və betonla örtüklənməsi sahəsində xidmət göstəririk. CPC-nin yerləşdiyi ərazi təxminən 250,000 $m^2$-lik sahəni əhatə edir və ərazimizdə bir dəfəyə 45 dəmiryolu vaqonunu qəbul etməyə qadir olan dəmiryolu xətti, habelə limanda gəmilər üçün boruların və digər yüklərin yükləmə-boşaltma əməliyyatlarının aparılmasına imkan verən 150 m uzunluğunda yanalma körpüsü mövcuddur.

Müəssisəmizin əsas sifarişçiləri BP/ABƏŞ və ARDNŞ-dir. Zavod iki sexdən və texnoloji qurğulardan ibarətdir. Zərurət olduqda, CPC uzunmüddətli fasiləsiz istehsalatın qurulmasına imkan verən  idarəetmə sisteminə malikdir.

CPC-nin fəaliyyət dövrü ərzində Azəri-Çıraq-Günəşli, Bakı-Tbilisi-Ceyhan, Şahdəniz-1, Lay Suları Layihəsi, Neft Daşları-Bahar daxil olmaqla 14 regional əhəmiyyətli layihə çərçivəsində boru izolyasiya və örtükləmə işləri yerinə yetirilmişdir. Belə ki, BP/ABƏŞ, ARDNŞ, EUPEC Fransa şirkətlərinin sifarişləri ilə 2002-2006-cı illər ərzində 1850 km, 2007-2010-cu illər ərzində 250 km boru izolyasiya edilmiş və örtüklənmişdir. Sözü gedən magistral yerüstü və sualtı neft-qaz və su borularının diametri 14-42 düym təşkil etmişdir. 2011-2014-cü illər ərzində biz ÇNL, “Şahdəniz” Faza 2, BP və Dövlət Neft Şirkətinin sifarişləri əsasında 1250-1500 km uzunluğunda boruların örtüklənməsini planlaşdırırıq.

Hazırda BP/ABƏŞ ilə imzalanmış müqavilə çərçivəsində icra etməkdə olduğumuz “Çıraq Neft Layihəsi” üzrə boruların korroziyaya qarşı izolyasiyası və betonla örtükləmə işləri 2012-ci ilin ikinci rübündə tamamlanacaqdır. Cari mərhələdə müəssisədə 140 nəfər mütəxəssis çalışır və istehsalın pik dövründə işçilərin sayı 280-300 nəfərə çatacaqdır. Qeyd etmək lazımdır ki, bərpa oluna bilən ehtiyatları 50 milyon ton neft və gündəlik hasilatı 140 min barel həcmində proqnozlaşdırılan “Çıraq Neft Layihəsi” çərçivəsində ilk neftin 2013-cü ilin dördüncü rübündə alınacağı gözlənilir. Bu Layihə daxilində quraşdırılacaq boruların diametri 16-30 düym arasında dəyişir və işlərin icrası zamanı əksəriyyəti yerli işçilərdən ibarət olan komandamız mövcuddur. Ümumilikdə, 2002-2006-cı illərdə BP/ABƏŞ-in sifarişi ilə həyata keçirilən beynəlxalq layihələrdə işlərin miqyasından asılı olaraq müəssisəmizdə 20-45 arasında yüksək ixtisaslı əcnəbi mütəxəssis çalışırdı. Son illərdə müəssisəmizin yerli kadrlarının ixtisas səviyyəsinin artırılması nəticəsində xarici mütəxəssislərin əksəriyyətini yerli mütəxəssislər əvəz etmişlər ki, bu da CPC-nin korporativ siyasətinin təbii nəticəsidir.

Ölkəmizin təbii resurslarının insan kapitalı ilə əvəz olunması ilə əlaqədar Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət istiqamətində Dövlət Neft Şirkəti Azərbaycanda təhsilin inkişafı və elmin stimullaşdırılması məqsədilə həyata keçirməkdə olduğu Təqaüd Proqramı ilə bərabər Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Elm Fondunu təsis etmişdir. "Caspian Pipe Coatings" müəssisəsi olaraq əsas təsisçimiz Dövlət Neft Şirkəti kimi biz də yerli kadrların inkişafına daim diqqət yetiririk. İşçilərin peşə hazırlığı və ixtisaslarının artırılması məqsədilə müvafiq ixtisasartırma, tədris kursları və seminarlar təşkil edirik.

Qeyd etdiyimiz kimi, "Çıraq Neft Layihəsi"nin icrası ilə bərabər "Şah Dəniz Faza-2" Layihəsinə hazırlıq ərəfəsindəyik. "Çıraq Neft Layihəsi"nin icrasında əldə edəcəyimiz uğurlu nəticələr müəssisəmizin "Şahdəniz-2" Layihəsində iştirakına zəmin yaradacaqdır. "Şahdəniz-2" Qaz Layihəsi çərçivəsində boruların korroziyaya qarşı örtüklənməsi ilə yanaşı, ilk dəfə olaraq yeni metodun - termal izolyasiyanın tətbiqi nəzərdə tutulur. Bundan əlavə, ARDNŞ-nin daxili resursları hesabına "Ümid" və "Babək" yataqlarının işlənməsi, eləcə də "Naxçıvan", "Abseron" və "Şəfəq-Asiman" dəniz strukturlarının istismara hazırlıq işlərində CPC-nin potensialından istifadə ediləcəyinə inanırıq.

Azərbaycanın Konstitusiyasının 11-ci Maddəsində bildirildiyi kimi, "*Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir*". Dağlıq Qarabağ münaqişəsinin BMT-nin 4 qətnaməsinə əsasən beynəlxalq hüquq normaları və qaydaları çərçivəsində həll edilməsindən sonra işğal olunmuş ərazilərimizdə dağıdılmış infrastrukturun və kommunikasiya xətlərinin bərpasında və örtüklənməsində müəssisəmiz üzərinə düşən öhdəlikləri yerinə yetirəcəkdir.

CPC-nin yerləşdiyi geniş ərazi, texniki təminat, ərazidəki dəmiryol xətti, limanın mövcudluğu, xüsusən peşəkar kadr potensialımız və ARDNŞ ilə bərabər BP-nin bizə geniş dəstəyi boru örtüklənməsi xidmətlərini və logistika xidmətlərini yerinə yetirməyə imkan verir. Bizim hədəflərimiz Azərbaycandan başqa, əsas region ölkələrinin, o cümlədən Qazaxıstan, Türkmənistan və Rusiyanın neft-qaz bazarlarıdır.

CPC-nin sağlamlığın və ətraf mühitin mühafizəsinə dair öhdəlikləri şirkətin korporativ fəlsəfəsinin mühüm tərkib hissəsidir. Müəssisəmiz *"İnsanlara, ətraf mühitə və əmlaka heç bir zərər vurmamaq!"* şüarını rəhbər tutaraq, işçi heyətinin, sifarişçilərin, təchizatçıların sağlamlığına və eyni zamanda ətraf mühitin mühafizəsinə dair qaydalara riayət edilməsinə tam təminat verir. Bizim məqsədimiz boruları maksimal dərəcədə keyfiyyətli şəkildə izolyasiya etməklə bərabər, əməkdaşlarımıza iş yerində risklərin və bədbəxt hadisələrin

qarşısının alınmasına yönələn icra metodikasını öyrətməkdən ibarətdir. Bununla yanaşı, Xəzər sahilində yerləşən müəssisə olaraq dənizin ekoloji cəhətdən təhlükəsizliyinin təmin edilməsi baxımından istehsalat zamanı zavodumuzda yaranan tullantıların daşınmasına xüsusi diqqət yetiririk.

2005-ci ildə "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz-1" layihələrinin və 2007-ci ildə Lay Suları Layihəsinin icrasında yüksək keyfiyyət göstəricilərinə görə CPC BP/ABƏŞ tərəfindən təltif olunmuşdur.

2009-cu ildə şirkətimizin fəaliyyəti ISO standartlarına uyğun olaraq sertifikatlaşdırılmışdır. Eyni zamanda, 2009 və 2010-cu illərdə müəssisəmiz müxtəlif nominasiyalarda "İlin Şirkəti" adına layiq görülmüşdür. Üç illik fasilədən sonra biz hazırda Ekspo Mərkəzdə keçirilən "18-ci Xəzər Beynəlxalq Neft-Qaz 2011" Sərgisində stendimizdə təmsil olunuruq.

Yekun olaraq, bildirmək istərdik ki, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən Azərbaycan Neft Strategiyasının icrasında yüksək keyfiyyət, təhlükəsiz əmək və sosial məsuliyyət meyarlarına uyğun olaraq davamlı şəkildə çalışacaq və ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfəmizi verəcəyik.

Diqqətinizə görə minnətdaram.

*Bakı, 8-9 iyun 2011-ci il*